## Ən yaxşı elektron dövlət xidməti

Vergilər Nazirliyinin təqdim etdiyi layihə bu nominasiya üzrə müsabiqənin birincisi olub

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) tərəfindən informasiya-kommunikasiya texnologiyalarının vəziyyətinə dair kezirilən müsabiqədə Vergilər Nazirliyi «Ən yaxşı elektron dövlət xidməti» nominasiyasında «Kommersiya hüquqi şəxslərin e-qeydiyyatı» layihəsi ilə iştirak edib. Müsabiqənin nəticələrinə görə, nazirliyin təqdim etdiyi layihə 1-ci yerə layiq görülüb.

## Şəffaflıq, müştəri məmnunluğu, vətəndaşların rahatlığı....

Korrupsiyaya qarşı mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsinin koordinatoru, Azərbaycan Hüquqşünasları Konfederasiyası İdarə Heyətinin üzvü Əliməmməd Nuriyev:

- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin dövlət orqanlarının e-xidmətlərlə bağlı qiymətləndirməsini tam obyektiv hesab edirik. Vergilər Nazirliyi informasiya-kommunikasiya texnologiyalarının dövlət idarəçiliyində tətbiqi üçün davamlı işlər aparır. Nazirlik elektron xidmətlərin təşkili ilə bağlı qarşıya qoyduğu məqsədlərə çatmaq üçün təkmil və sistemli iş qurub. İKT-nin son yeniliklərinin tətbiqi, informasiyanın açıqlığı və digər məsələlər nazirliyin fəaliyyətinin əsas istiqamətlərini təşkil edir. İşin səmərəliliyi və keyfiyyətinin yüksəldilməsi, şəffaflıq, müştəri məmnunluğu, vətəndaşların rahatlığı Vergilər Nazirliyinin fəaliyyətində açıq şəkildə özünü göstərməkdədir.

Ə.Nuriyev vətəndaşların elektron xidmətlər və tətbiq olunan yeniliklər barədə vaxtında məlumatlandırılması üçün bütün lazımi informasiyaların Vergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilməsini də yüksək qiymətləndirir. Onun fikrincə, nazirliyin saytında bu dövlət qurumunun fəaliyyəti ilə bağlı informasiyalar tam və dolğun şəkildə təqdim edilir: «Ümumiyyətlə, bu dövlət orqanının cari fəaliyyəti haqqında informasiyalar tam və dolğundur, saytın texniki imkanları isə mükəmməldir».

Ə.Nuriyevin qeyd etdiyinə görə, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi vergi sektorunda şəffaflığın artırılması baxımından böyük əhəmiyyət kəsb edir. O, hesab edir ki, nazirliyin apardığı davamlı tədbirlər vergi sistemində müasir idarəetmənin daha da yaxşılaşmasına, vergi ödəyicilərinə keyfiyyətli xidmətlər göstərilməsinə, məmur-vətəndaş təmaslarının minimuma endirilməsinə səbəb olur, korrupsiya hallarına qarşı mübarizənin gücləndirilməsinə öz müsbət təsirini göstərir.